BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2015*

**UOT 39(4/9)**

# İNANCLAR XALQ TƏBABƏTİNDƏ

**H.Ə.ZAHİDOVA**
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***heqiqet_1958@mail.ru***

*Tibb və əczaçılığın kökündə dayanan xalq təbabəti, dinə, sehirə, ovsuna, ağıla və təcrübəyə əsaslanmışdır. Bu məqalədə bəhs olunan Ovsunçu Şamanlar bitki, heyvan və mineral mənşəli dərmanlarla deyil, xəstələri inanclara söykənərək müalicə edərdilər. İslam öncəsi bu inanc sistemini özünəxas bir tərzdə yaşadan Türk dünyasında insanlar sağlamlıq və xəstəliyin təbiətdəki xeyirxah və bəd ruhlar arasındakı tarazlığa bağlı olduğuna inanırdılar. Ruhlar ilə insan arasındakı vasitəçilik rolunu icra edən xüsusi qabiliyyətə sahib Şamanlar cəmiyyətdə əhəmiyyətli bir yer tuturdu. İnanca görə onların vəzifəsi, ruhlarla danışmaq, ruhun itirilməsi və ya pis ruhların insan ruhunu oğurlaması ilə meydana gələn xəstəlikləri müalicə etmək və ölənlərin ruhlarının o biri dünyaya gedişinə yoldaşlıq etmək idi. Eyni zamanda, cadu etmək, quraqlıq olduğu zaman yağış yağdırmaq, bitki və heyvanların çoxalmasını təmin etmək, fala baxmaq kimi cadu əməlləri ilə də məşğul olurdular*

**Açar sözlər***:* din, təbabət, inanc, şaman, pir, etiqad

İnsanların ən müxtəlif inanclara bağlılığı təbiət-insan münasibətlərində fövqəltəbii qüvvələrə pərəstişin nəticəsidir. Qədim yunan mütəfəkkiri Plutarx yazırdı: "Yer üzərinə nəzər salın. Siz istehkamsız, elmsiz, şəhərlər tapa bilərsiniz. Siz pul barədə heç nə bilməyən, incəsənətdən məlumatı olmayan insanlar görə bilərsiniz, amma siz Tanrısız bir insan cəmiyyəti, qurbankəsmə, andiçmə və ibadət ənənəsi olmayan məbədsiz şəhər tapa bilməzsiniz. Bunun yalnız bir izahı var: bəşəriyyət tarix boyu dinə ehtiyac duymuş, onda ruhi təskinlik və mənəvi qida tapmışdır" (1, 33).

Tarix boyu insan həyatına və psixikasına bu və digər dərəcədə təsir göstərən amillər sırasında inanclar özünəməxsus yer tutmuşdur. İnsanın gözəgörünməz qüvvələrə, Tanrıya, Allaha, müqəddəs yerlərə, müqəddəs varlıqlara hədsiz etimad göstərməsini, daxilən inanmasını, bağlanmasını, etiqad etməsini ifadə edən inancların tarixi insanlığın tarixi qədər qədim və zəngindir. İnam və etiqad inanclı insanların həyatında onlar üçün mənəvi dayaq rolunu oynayır. Bəzi etnoqrafik sorğulara, istinadən inanclı insanlar ateistlərə nisbətən ruhi

cəhətdən daha sağlam olur, xəstələndikdə isə daha tez şəfa tapırlar. Məşhur hind mütəfəkkiri Mahatma Qandinin bir vaxt söylədiyi: "Əgər din olmasaydı, çoxdan dəli olardım" (1, 41), fikri bu iddianı qüvvətləndirir. Din inanclı insanlar üçün daim bir ümid mənbəyi olmuşdur. Onlar çətin günündə, təbii fəlakət, aclıq, müharibə, xəstəlik, qorxunc hadisələrlə üz-üzə qalarkən Tanrıya üz tutmuş, ondan kömək diləmişlər. Dini inanc və etiqadları insan varlığının ayrılmaz tərkib hissəsi, onun ümid yeri, rahatlıq mənbəyi, mənəvi qidası sayan idealist baxışlar da mövcuddur. İnanc və etiqadların insanların həyatının və məişətinin bütün sahələrində əhəmiyyətli rol oynaması barədə çoxsaylı faktlar göstərmək mümkündür. İnsanların mənəvi aləmində yaranan inanc və etiqadın tarixi haqqında qədim zamanlardan bəri rəvayətlər söylənilmiş, əsərlər yazılmış, fikirlər deyilmişdir. İbtidai insan birliyi yarandığı vaxtdan onunla daima bir yerdə olan, ümid mənbəyinə çevrilən hisslər, duyğular, inamlar, real həyat hadisələri onların yaşayış tərzi ilə sıx bağlı olaraq müəyyən inkişaf yolu keçmişdir. Müxtəlif təbiət hadisələrinin baş verməsi, insana bəzən bədbəxtlik, bəzən də faydalar gətirməsi kimi hallar, bunları törədə bilən fövqəltəbii qüvvələrin varlığına inam yaratmış, çətinliklər qarşısında qalan insan onun üçün izahedilməz hadisələrin, proseslərin, fəlakətlərin, xəstəliklərin qarşısında bu inanclara sığınmış, çıxış yolu, xilas yolu ümidində olmuşdur. Bəzən də insanın yalvarışları müsbət nəticələr vermiş, rahatlıq və könül xoşluğu gətirmişdir. Təbiət hadisələrini izləyən insan onun müəyyən qanunauyğunluqlarını müşahidə edərkən, təkrarlanan və fəlakət gətirən təbii proseslərin qarşısını almaq barədə düşünmüşdür. Bu, bioloji və sosial varlıq olaraq insanın psixologiyasında, varlığında, ruhunda silinməz izlər qoymuşdur. Əgər yalvarışlar təbiətdə gözlənilən fəlakətlərin ötüb keçməsi ilə nəticələnirdisə, bu hal empirik olaraq nəsildən-nəslə ötürülmüş, "sınama" adlanan vərdişə çevrilmişdir. Bütün bunlar insanların müşahidələri, gəldiyi nəticələri, vərdişləri, inam və etiqadlarını daha da gücləndirmişdir. Beləliklə, zaman keçdikcə insanların inam və etiqadları illərin, əsrlərin, hadisə və proseslərin sınağından çıxaraq həyat tərzində əhəmiyyətli bir vərdiş kimi dəyərlər sisteminin əsasına çevrilmişdir.

Mənəvi mədəniyyətin tərkib hissəsi kimi inancların etnoqrafik tədqiqatlara cəlb edilməsi mühüm əhəmiyyət daşıdığından, onun araşdırılmasına zaman-zaman müəyyən yer ayrılmış olsa da, Azərbaycan etnoqrafiya elmində ibtidai inam və etiqadların xalq təbabətinə təsiri indiyədək az tədqiq edilmişdir. Müstəqillik illərində milli-mənəvi dəyərlərin obyektiv və hərtərəfli araşdırılmasının genişləndiyi bir şəraitdə bu problemin tədqiqinə ehtiyac yaranmışdır. Xalqın həyat və məişəti, adət-ənənələr, ayinlər, mərasimlər, bayramlar, inam və etiqadların öyrənilməsi bu günümüzdə əhəmiyyətli reallığa çevrilmişdir.

Dövrümüzə qədər gəlib çatan inam və etiqadlar milli-mənəvi varlığın ilkin əlamətləri olaraq ulu əcdadların fəlsəfi və etik görüşlərini, həyata baxışını, məişətini, adət-ənənələrini, təbiət hadisələrinə münasibətini və son nəticədə xalqın kimliyini əks etdirməklə, qiymətli mənbə sayılır. Hər araşdırma, hər

tədqiqat əsəri özündən əvvəlki dövrün gəldiyi nəticələri daha da zənginləşdirmiş və xalqın tibbi sağlamlıq təcrübəsində müəyyən rol oynamışdır.

Fetişizm, totemizm, animizm, şamanizm, magiya və. s formalarda təzahür edən əski inam və etiqadlar zaman keçdikcə müxtəlif dinlərin formalaşmasına, təşəkkülünə, inkişafına, dini şüurun və əqidənin cilalanmasına öz təsirini göstərdiyi kimi, xalq təbabətinin formalaşmasında da müstəsna rol oynamış, bunlar vərdişə, ənənəyə, rəftar normasına çevrilərək nəsildən-nəslə ötürülmüşdür.

Əcdadların totemik anlayışlarını əks etdirən, qədim dini-mifik təsəvvürlərin və ibtidai inamların qalıqları əcdad kultu, su kultu, ovsun ayinləri, hal anası, Günəş, Ay kultu, ağac kultu, heyvan kultu, dağ-daş kultu və s. ayinlər xalq məişətində indi də öz yerini saxlamaqdadır və onun komponenti mərasim ayinlərindəki müalicəvi və qoruyucu ovsunlardır.

Ağac, dağ-daş, su, od, bitki, heyvan, minerallar və sairlə bağlı olan xalq inamları dua, ovsun, cadu və digər üsul və vasitələrlə müalicə proseslərində istifadə edilmiş və zaman keçdikcə daha da təkmilləşmişdir. İnam və inanclarla bağlı olan bu ayinlərin psixoloji təsiri insana verdiyi ümid, sevinc, ruh yüksəkliyi, rahatlıq, bir sözlə sağlamlıq kompleksi, ona şəfa vermiş, sağaltmış və bütün bunlar insana emosional təsir göstərməklə böyük marağa səbəb olmuşdur.

İbtidai insanın özünü asılı saydığı mürəkkəb təbiət hadisələrinə, xəstəliklərə, uğursuzluqlara təsir etmək cəhdi, bununla da baş verə biləcək xətabəladan, xəstəlik, aclıq, ölüm kimi hallardan qoruna bilmək istəyi bəzi sınamaların yaranıb yayılmasına səbəb olmuşdur və bu kimi sınamalara, ovsunlamalara indi də rast gəlmək olar.

Məlumdur ki, xalq müalicə üsulları təkcə bitki, heyvan və mineral mənşəli vasitələrlə tamamlanmır. Xalq inanclarına söykənən xeyli sayda müalicə üsulları mövcuddur ki, əhali arasında az və çox dərəcədə bu gün də qalır. Türk xalqlarında ilkin xalq təbabəti ilə məşğul olan insanlar müalicə zamanı müxtəlif bitkilərdən dərmanlar hazırlamaqla yanaşı, ovsunlardan və digər dini təsir vasitələrindən az və ya çox dərəcədə istifadə etmişlər.

Əsrlərin sınağından çıxmış müalicə üsullarından biri kimi sözün gücünə inamı əks etdirmə bir vasitəsi olan ovsunlar, dualar, yalvarışlar geniş yayılmışdır. Qədim türk tayfalarının ilkin ammistik və magik təsəvvürlərinin məhsulu olaraq ovsunlar insanın gündəlik məişətində, təbiəti dərketmə prosesində, həyatın gedişini arzuladığı səmtə yönəltmək və ona təsir etmək arzusundan irəli gəlmişdir. Magik düşüncə kimi əfsunlar – ovsunlar arxaikləşsə də, yaddaşlardan bu günə qədər silinməmiş, tətbiqetmə arealı daha da genişlənmişdir.

Tarixi islamdan əvvələ təsadüf edən ovsunçuluqla əsasən Şamanlar məşğul olmuşlar. Şamanizm, insanlığın bəlkə də ən qədim inanc təlimlərindən biri olmaqla, qədim və rəngarəng ayin icraları ilə zəngindir. Bu inanc ən çox sehrləmə və cadulama proseslərinə, vərdişlərinə söykənmişdir. Şamanizmin tədqiqat obyekti kimi müxtəlif elm sahələri – etnoqrafiya, dinşünaslıq, psixologiya, etika, estetika və digər elmlər tərəfindən öyrənilməsinə baxmayaraq,

onun yaranma tarixi haqqında qəti məlumatlar əldə edilməsi indiyə kimi mümkün olmamışdır. Buna baxmayaraq, şamanizmin ibtidai icma quruluşunda ibtidai insanların və xalqların ruhlarla ünsiyyət yaratması, ruh haqqında təsəvvürlər sistemini özündə birləşdirən inanc olması qənaətinə gəlmək mümkündür. Şamanlar həyatlarını mağara və gizli hücrələrdə zahid kimi keçirən, "sehri-tibbi" xüsusiyyətlərə sahib olan və cəmiyyətdə "sehrbazlıq-həkimlik" vəzifələrini boynuna götürərək, insanla tanrı, insanla ruh arasında ünsiyyət yaratmağa vasitəçilik edən inanc sahibləri hesab edilmişlər. Xüsusilə təbiətin son dərəcə dəyişkən, möcüzələrlə dolu olan regionlarında – Sibir xalqlarında və türklərdə coşqun rəqsləri ilə ovsunlamaq qabiliyyəti ilə bəd ruhları qovmaq, yaxşı və müqəddəs ruhları çağırmaqla insana xeyirxahlıq və yaxşılıq bəxş etmək istəyən şamanlar, gələcək haqqında müəyyən xəbərlər vermək, eyni zamanda tanrını və ruhları insanlara köməyə çağırmaqla ümid yerinə çevrilmişlər. Öz dedikləri kimi, gücünü göylərdən və ataların ruhlarından alan şamanlar istər kişi, istərsə də qadınlar arasında öz peşələrinin ustalıqla icrası sahəsində dərin vərdişlərə sahib olmuşlar. Onlar xəstələrə müəyyən təsir göstərməyi bacarmış, insanın bədənindən pis qüvvələri çıxarmağa təşəbbüs göstərmiş, müraciət edənlərin hörmətinə və sevgisinə sahib olmuşlar. Tarixi ənənələrə, vərdişlərə, təcrübəyə əsaslanan şamanlar dərin elmi təhsil almasalar da, öz inanclarının kamil bilicisi olmuş, bu inancın bütün sirrini, tanrıların həyatlarını və şəcərələrini bilmək, onların işlərinə müdaxilə və hərəkətlərinə təsir etmək bacarığı ilə qürur duymuşlar. Şamanlar vəcd halında olduqları zaman ruhun göylərə çıxdığına və yer altına enib cəhənnəmi gördüyünə insanları ustalıqla inandırırdılar (2, 118-122). Onların digər fani insanlardan üstünlüyü ancaq ayin icra etdikləri zaman, tanrılar dünyasına qarışdıqları, ekstaz halına gəldikləri anlarda olurdu. Ekstaz halı keçdikdən sonra şamanlar da digər insanlardan fərqlənmirdilər (3, 79)

Azərbaycanda şamançılığın olub–olmaması haqqında mübahisəli fikirlər mövcuddur. Lakin Kür-Araz mədəniyyətində Şaman ainlərində istifadə olunan buxurdanın tapılması etnoqrafik baxımdan bu ərazilərdə şamançılığı təsdiq edən faktdır. Tuncdan düzəldilmiş içi boş, ucu zəncirli bu maral fiqurlu buxurdanın eynisi Sibirdən də tapılmışdır (4).

1930-cu ildə Göy-göl rayonunda (keçmiş Xanlar) arxeoloji qazıntılar zamanı tuncdan hazırlanmış bir tac tapılmışdır. Xüsusi ornament motivi ilə bəzənmiş bu tac (e.ə. X əsrə aiddir) Azərbaycanın ilk şamanlarından birinə aid edilir (5, 39).

Oğuz türklərinin tarixini əks etdirən "Kitabi Dədə Qorqud" dastanında Dədə Qorqud obrazının "Oğuzun ol kişi taman bilicisiydi, nə dersə olurdu, qaibdən dürlü xəbər söylərdi" "Haqq-Təala onun könlünə ilham edərdi" kimi qeyri-adiliyinin təsviri bütün dastan boyu onun sanki ğam kefiyyətlərindən xəbər verir.

Xalqımiz dilində tez-tez səslənən "ayağının altında ölüm" ifadəsi Strabonun aşağıdakı fikri ilə səsləşir desək bəlkə də yanılmarıq. Strabon yazır:

kimlər ki, icmanın içərisindən ekstaza gələ bilib, yəni gələcəkdən xəbərlər söyləyir, onları zəncirləyirdilər və müəyyən bir vaxtda öldürərdilər. Ondan sonra özlərini təmizləmək üçün ayaqlarını onun cəsədinə sürtərdilər. “Ayağının altında ölüm” ifadəsi də burdan meydana gəldiyini düşünmək olar. Bunun da Azərbaycanda şamançılığın olduğunu göstərən misallardan biri olduğunu deyə bilərik.

Şamanlar cəmiyyət həyatında müstəsna yer tutan, hamının çəkindiyi insanlar idilər. Şamanlar həqiqətən də özlərinin müəyyən cəhətlərinə görə bu və digər dərəcədə başqalarından fərqlənirdi. Onlar sehrbaz olduqları kimi, həm də sehrli üsulla xəstəlikləri müalicə edən kahinlər kimi tanınmışlar. Şaman ailəsində böyüyənlər hələ uşaqlıqdan düşüncə və dərrakələri, təbiətdəki bəzi sirlərdən əvvəlcədən xəbər tutmaqları, dərin mühakimə və məntiqə söykənərək ayrı-ayrı məsələlər barədə doğru mühakimələr irəli sürməkləri və nəticə çıxarmaq qabiliyyətləri ilə fərqlənmişlər. Ona görə də şaman ailəsində inancın davamçıları nəsildən-nəslə keçməklə, daşıdıqları inanci ümumi və fərdi elementlər ilə zaman-zaman zənginləşdirmişlər. Elə indinin özündə də bu kimi vərdiş sahiblərinin daşıyıcılarına rast gəlmək mümkündür.

Şamanlar bütün millətlərdə və tarixin bütün dövrlərində müxtəlif adlarla adlandırılmışdır. Türk xalqları arasında şamanlar “kam”, “ğam”, “ham” kimi adlarla tanınmışdır. Kam ümumiyyətlə, "kahin, sehirbaz" mənasını ifadə edir. Bununla belə bu termin türk dilində bəzən "mütəxəssis həkim”, “elm adamı”, “filosof" mənalarındadır. Qədim türk mənbələrində bəzən "bütpərəst rahib", bəzən isə "cadugər" mənasında da istifadə edilir. Şamanlar ruhların köməyi ilə xəstənin bədənindəki bəd ruhları və onların zərərli təsirini qovub çıxarır və müraciət edənlərdə şəfa tapmağa inam yaradırdılar (6, 40).

Araşdırmalarımızdan aydın olur ki, insan cəmiyyətinin ilk təbibləri məhz Şamanlar olmuşlar. Tarixdə ilk dəfə psixoterapiya metodu ilə ilk müalicə üsulları da şamanlara məxsus olmuşdur. Türklər İslamı qəbul etdikdən sonra da Şamanlar cəmiyyətdə əhəmiyyətli rola malik olmuşlar. Onların fəaliyyətini zaman keçdikcə müsəlman mollaları davam etdirməyə başlamışdır. Bəzi türk xalqlarinda bu gün də keçmiş şaman ənənələrinə əsaslanan xalq müalicə üsullarından istifadə olunmaqdadır. Müasir tibbi müalicələrdən ümidini kəsən insanlar digər müalicə üsullarında çarə axtarırlar. Şaman ənənəsi və müalicə üsulları xalqın yaddaşında, tarixi qaynaqlarda və folklor əsərlərində hələ də yaşamaqdadır. Şamanizmdə belə bir inam formalaşmışdır ki, ruhlar nəticə etibarilə ayrı-ayrı insanların qəlbində məhəbbət, nifrət yaratmaq, xəstəliklər törətmək qabiliyyətinə malikdirlər. Uyğur türklərinə görə şamanlar, insanın keçmişi, bu günü və gələcəyi, hər hansı bir xəstəliyin səbəbi və müalicəsi haqqında nəinki bilir, habelə bu məsələlər barədə xüsusi qabiliyyətləri ilə seçilirdilər. Buna görə də xəstələri müalicə edərkən dualar oxuyur və ruhlardan kömək diləyirdilər (7, 398). Bəzi hallarda ovsunlar tilsim, fal, sehrlə eyniləşdirilirdi. "Ovsun" və "tilsim" eyni məna, funksiya daşıyan anlayış kimi izah olunsa da, onlar ifadə formasına görə bir-birinə oxşamadığı kimi, lüğəti məna və mahiy-

yətinə görə də bir-birindən fərqlənən anlayışlardır. Sonralar ovsunçuluqla məşğul olan adamları “cindar” adlandırmağa başladılar. Onlar ilk olaraq xəstəliyi və onu törədən səbəbləri aydınlaşdırır, sonra ovsunçuluğun müəyyən prinsiplərinə riayət edərək uyğun müalicə üsulu tətbiq edir və həyata keçirdikləri rituallarla mənfi ruhları insanın bədənindən çıxarmaqla, onları müalicə edə bilirdilər. Belə müalicə üsulu əsasən söz və hərəkətlərdən ibarət olmaqla, hətta bəzən uzaq məsafədən belə təsiretmə imkanlarına əsaslanırdı. Ayin zamanı müxtəlif səslər və sözlər vasitəsilə insan psixikasına, təbiət qüvvələrinə təsir göstərilir və sözün güc və təsiri ilə insanda sağalmasına böyük inam yaradır və təlqin edirdi. Bu fakt bir çox tədqiqatçılar tərəfindən də təsdiq olunur (8, 324). Ovsunçular xəstəlik yarada biləcək bəd nəzərin, qara qüvvələrin bədənə keçməməsinin qarşısını almaq məqsədi ilə qabaqlayıcı profilaktik ovsunlardan da istifadə edirdilər. Bu zaman oddan, sudan, bitkidən və s. istifadə edir və müxtəlif ayinləri icra etməklə prosesi başa çatdırırdılar. Ovsun ayinlərində əsas prinsip psixoeffektiv inam aşılamaqdan ibarət idi. Xəstənin həssaslığı, emosiyaları, qıcıqları, hadisələrə fərdi reaksiyası bu sağalma prosesində əhəmiyyətli rol oynayırdı (9, 34-35). Şamanizm müasir dövrümüzdə Sibir və Orta Asiya türklərinin həyatında pərakəndə halda olsa da, bir inanc kimi qorunub saxlanılır, keçmiş şaman ənənələrinə əsaslanan xalq müalicə üsullarından istifadə olunur. Müasir tibbi müalicələrdən ümidini kəsən insanlarından alternativ üsullardan mədəd umurlar.

Xakasiya türkləri arasında da şamanizm inancı geniş yayılmış və hələ də öz təsirini saxlamaqdadır. Bununla yanaşı, bu inancin daşıyıcılarına Rusiya, Monqolustan, Tacikistan, (bu ölkə əhalisinin böyük bir qismini özbəklər təşkil edirlər) Qazaxıstan və s. bu kimi ölkələrdə də rast gəlinir. Araşdırmalarımızdan aydın olur ki, insan cəmiyyətinin ilk təbibləri kimi məhz şamanlardan istifadə etmişlər. Tarixdə ilk dəfə psixoterapiya metodu ilə müalicə üsulları da məhz şamanlara məxsus olmuşdur.

Tarixdə “Maqların təlimi” kimi tanınan inancların midiyalılardan gəldiyi iddia edilir. Maqlar mənşə etibarilə Midiya tayfalarından hesab edilirdilər. Etnoqrafik tədqiqatlar göstərir ki, etnik mənsubiyyətindən asılı olmayaraq, sadəcə kahinləri də bəzən “maq” adlandırırdılar (1, 31). Maqlar oda sitayişin və qədim ənənələrin mühafizəçiləri hesab olunurlar. Bu təlimin əsasında İşıqla Zülmətin mübarizəsi dayanır. İşıq – Günəş, Od insanın maddi və ruhi sağlamlığı üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda xalq inanclarında özünəməxsus yer tutan ovsun ayinləri qoruyucu, müalicəedici, zərərverici magiya və aldadıcı ayinlər kimi xalqın məişət ənənələrində özünü göstərir. Bununla əlaqədar olaraq Azərbaycanın ayrı-ayrı bölgələrində qurd (canavar) yağı, at quyruğu, it, pişik tükü, qara toyuq qanı və digər vasitələrlə ovsunlamaq və bu inancları tətbiq etmək adətləri məişətdə indi də qalmışdır. Qoruyucu ovsun kimi əsasən dəmir, qurğuşun, üzərlik, heyva, dağdağan çöplərindən istifadə etməklə oxunan ovsunlar geniş istifadə edilməkdədir. Zərərverici ovsunlara qarşı bəzən önləyici tədbir kimi səma

cisimlərindən, Aydan, Günəşdən, habelə oddan, bitkidən, ağacdan, sudan istifadə edilməkdədir. Şaman ənənəsi və müalicə üsulları xalqın yaddaşında, tarixi qaynaqlarda və folklor əsərlərində indi də yaşamaqdadır.

## ƏDƏBİYYAT


1.Orucov F. Azərbaycanda din: ən qədim dövrdən bu günədək. Bakı: 2012. s. 31-33

2.Ünver Günay-Harun Güngör, Başlangıçlarından Günümüze Türklerin Dinî Tarihi. İstanbul: Rağbet Yayınları,2009, s.41

3.Abdülkadir İnan. Tarihte ve Bugün Şamanizm. Materiallar ve Araştırmalar. Ankara: TTK Yayınları, 2006, s.118-122

4.Məmmədov M. Tərəf qəzeti mən özümü qoyundan törəmiş hesab eləmirəm. 2014. 10. 8.

5. Rzayev N. Əsirlərin səsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1974, s.33

6. Alimcan İnayet. “Bugünkü Uygurlarda şamanlık ve Bir şaman Duası: Azâim Ko Çukı”, Halkbilimi Dergisi, S.1-2, Ankara: 2009, s.40

7. Abdurehim Hebibulla. Uyğur Etnografiyisi, Sincañ Halk Neşriyatı, Ürümçi, 2000, s.398

8. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. Bakı: Turan, 2002, s.324

9. Kirpi piyi, yarpız iyi, mərcimək. Bakı: Yazıçı, 1994. 34-35 s.34-35


## РОЛЬ ПОВЕРИЙ В НАРОДНОЙ МЕДИЦИНЕ


**Г.А.ЗАХИДОВА**


## РЕЗЮМЕ


Известно, что исторически люди и их сознание в той или иной степени находились под влиянием различного рода верований, которые играли важную роль в их жизни. Безграничное верование в потусторонние силы, поклонение языческим богам, а затем единобожью - Танры, Аллаху, священным людям и местам, духовная вера людей и связь этой веры с совершаемыми и по ныне ритуалами уходит своими корнями в глубь веков которые следует отметить, что весьма многообразны.



**Ключевые слова:** верования, народная, медицина, поверья, шаманизм


## THE ROLE OF FAITH IN FOLK MEDICINE


**H.A.ZAHIDOVA**


## SUMMARY


Beliefs have taken a specific position among factors that have influenced the human life and psychology to some extent. Beliefs express human being’s extreme reliance on internal belief and faith in invisible forces, God, Allah, holy places, and sacred beings. The history of those beliefs is as old and rich as that of the mankind.

Ethnographic research of primary beliefs and faiths in terms of folk medicine is a less investigated subject in the system of moral cultures. Research and study of people’s life and way of living, customs and traditions, rituals, ceremonies, festivities, beliefs and faiths have become an important reality, and necessitated studies of those issues.



**Key words:** religous, medicine, belief, shamanisim